# Dünya birliyi Ermənistanı revanşizmdən və təxribatlardan çəkindirməlidir

***Tarixən olmasa da, son əsrlərdə qonşuluq etmək məcburiyyətində qaldığımız ermənilər təkcə işğalçılıq, terrorçuluq və separatçılıqla deyil, həm də haqsızlıq, ədalətsizlik, oğurluq, kəmfürsətlik, başqa dövlətlərin əlində kiməsə qarşı işlədilən alətə çevrilməklə regionda hamının gözündən düşüblər. Bütün qonşulara qarşı ərazi iddiası irəli sürmək, kimi dəhşətli "ermənilik" xəstəliyindən əziyyət çəkən bu qövmün son həyasızlığı bizi – Milli Həmrəylik Partiyasının çoxminli üzvlərini ciddi şəkildə narahat etdi və dünya ictimaiyyətinə ünvanladığımız bəyanatı imzaladıq.***



Həmin sənəddə xatırladırıq ki, biz Milli Həmrəylik Partiyası olaraq, bu bəyanatı dünya ictimaiyyətinə, ilk növbədə isə özünü təcavüzkar Ermənistanın və Azərbaycan ərazilərindəki separatçı-terrorçu erməni dəstələrinin himayədarı kimi aparan böyük dövlətlərin liderlərinə, parlamentarilərinə ünvanlayır və onları ədalətli mövqe tutmağa, Ermənistanın revanşist siyasətini pisləməyə, Paşinyan hökumətini avantürist, təxribatçı hərəkətlərdən çəkindirməyə çağırırıq.

Belə hesab edirik ki, cari il sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin, erməni diversiya qruplarının Azərbaycan dövlət sərhədini pozaraq, Daşkəsən, Kəlbəcər, Laçın istiqamətlərində təxribatlar törətməsinin günahı təkcə Ermənistanın mövcud hakimiyyətində deyil. Bu proseslərdə Ermənistana havadarlıq edən qlobal geosiyasi aktorların, Minsk qrupunu reanimasiya edib yenidən dirçəltməyə çalışan həmsədr ölkələrin də üzərinə böyük məsuliyyət düşür. Bəli, məhz onların dəstəyi və himayəsi rəsmi İrəvanı təxribatlar törətməyə cürətləndirir. Xüsusən də ABŞ və Fransa Ermənistanı açıq-aşkar qızışdırıcı hərəkətlərə təhrik edirlər.

Əslində, hər kəsə gün kimi aydındır ki, Ermənistandan fərqli olaraq Azərbaycan sözdə yox, real anlamda sülhsevər ölkədir və regionda hərbi gərginliyin artmasında qətiyyən maraqlı deyil. Çünki Azərbaycan hazırda işğaldan azad edilmiş ərazilərdə– erməni vandallarının xarabalığa çevirdiyi torpaqlarda genişmiqyaslı bərpa – yenidənqurma işləri aparır və Böyük Qayıdışın (məcburi köçkünlərimizin öz dədə-baba yurdlarına qayıdışının) təmin edilməsi üçün bölgəyə külli miqdarda sərmayələr yatırır. Bu cür böyük quruculuq işləri aparan bir ölkənin hərbi eskalasiyaya, münaqişələrə meyilli olması qətiyyən inandırıcı görünmür.

Əksinə, Azərbaycan bir an öncə Ermənistan ilə yekun sülh sazişi imzalayaraq, Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olmasına can atır və bunu həmsədr ölkələr də, dünya birliyi də çox yaxşı bilir. Onlar Ermənistanın təcavüzkar dövlət olduğunu və Paşinyanın hal-hazırda Azərbaycan ərazisində yaşayan ermənilər üzərindən manevrlər etdiyini, dünyanı aldatmağa çalışdığını bizdən də yaxşı bilirlər. Lakin buna baxmayaraq, onlar Ermənistanı öz təcavüzkar əməllərindən çəkindirməyə heç bir səy göstərmirlər. Ona görə də Ermənistan Azərbaycana qarşı ardıcıl və sistemli xarakter daşıyan təxribatlar törətməkdə davam edir və yəqin ki, bundan sonra da təxribatlarını davam etdirəcək. Ancaq Azərbaycan bu təxribatların qarşısını almağa qadirdir. Ermənistanın son genişmiqyaslı təxribatına qarşı Ordumuzun həyata keçirdiyi adekvat cavab tədbirləri də bir daha hamıya göstərdi ki, Azərbaycanın qarşı tərəfin istənilən təxribatının qarşısını almağa və öz ərazi bütövlüyünü, suverenliyini qorumağa, strateji mövqelərini möhkəmləndirməyə gücü çatır. Bunu Ermənistanın havadarları da bilməlidir.



Biz Milli Həmrəylik Partiyası olaraq BMT Təhlükəsizlik Şurasına üzv dövlətləri Ermənistan rəhbərliyini sülh danışıqlarının ləngiməsinə xidmət edən pozucu hərəkətlərindən əl çəkməyə və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qəsd xarakterli hərbi təxribatlara son qoymağa dəvət etməyə, daha doğrusu, məcbur etməyə çağırırıq. Bəli, bunu ilk növbədə onlar etməlidir. Çünki onlar dünyada sülhün və təhlükəsizliyin qarantı roluna iddialıdırlar. Ona görə də Ermənistan kimi təcavüzkar dövləti sülhə məcbur etmək bilavasitə həmin dövlətlərin borcudur. Lakin onların bunu etməyəcəyi təqdirdə Azərbaycan özü rəsmi İrəvanı sülh sazişini imzalamağa məcbur edəcək. Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Ordusu buna qadirdir.

Milli Həmrəylik Partiyası 44 günlük İkinci Qarabağ müharibəsi zamanı olduğu kimi, indi də mübariz Azərbaycan Ordusunun, Azərbaycan Prezidenti və Ali Baş Komandanı İlham Əliyevin yanındadır. Dostlarımız da, düşmənlərimiz də istər Azərbaycan xalqının, istərsə də ölkəmizin siyasi qüvvələrinin taleyüklü məsələlərdə milli birlik və həmrəylik nümayiş etdirmək əzminə və təcrübəsinə bələddir. Biz bölgəmizə sülh və əmin-amanlığın gəlməsi naminə birlik nümayiş etdiririk. Biz təcavüzkar ölkənin ədalətsizliyinə qarşı mübarizə aparmaq üçün həmrəylik mövqeyindən çıxış edirik. Və biz dünya birliyini də şərə qarşı, ədalətsizliyə qarşı mübarizə aparan Azərbaycanın yanında olmağa səsləyirik!

***Əlisahib HÜSEYNOV,***
***Milli Həmrəylik Partiyasının sədri***